**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ƏHALİNİN HƏYAT SƏVİYYƏSİNİN KƏND TURİZMİNİN SƏMƏRƏLİ TƏŞKİLİ ƏSASINDA YÜKSƏLDİLMƏSİ İSTİQALMƏTLƏRİ

İxtisas: **5308.01 "Ümumi iqtisadiyyat"**
Elm sahəsi: **İqtisad elmləri**
İddiaçı: **Aygün Qorxmaz qızı Səmədova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Gəncə-2022**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetinin "İqtisadiyyat və Vergi işi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru
**Vilayət İbrahim oğlu İsmayılov**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Elşad Yaqub oğlu Məmmədov**

iqtisad elmləri namizədi, dosent
**Anar Əli oğlu Əzizov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Lalə Müsəllim qızı Vəliyeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikası Prezidenti yanında fəaliyyət göstərən Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Aqrar Universiteti nəzdində fəaliyyət göstərən ED 2.42 Birgə Dissertasiya Şurası

Dissertasiya Şurasının Sədri: AMEA-nınn həqiqi üzvü, i.e.d, professor
______________ **Ziyad Əliabbas oğlu Səmədzadə**

Dissertasiya şurasının elmi katibi: İqtisad üzrə fəlsəfə doktoru, dosent
______________ **Pərvin Elman qızı Muxtarova**

Elmi seminarın sədri: İqtisad elmləri doktoru, professor
______________ **Məhərrəm Cəlal oğlu Hüseynov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqatın aktuallığı və işlənilmə səviyyəsi.** Müasir şəraitdə Azərbaycan iqtisadiyyatının inkişafının xarakterik xüsusiyyətinə resursların çıxarılması və resurstutumlu sahələr aiddir, bunlar iqtisadi artımın inkişafını təmin etməklə əhatəedici təbii mühitin deqradasiyasına əhəmiyyətli təsir göstərir və dayanıqlı inkişaf Konsepsiyasına ziddir. Bu cür meyllər öz ardınca ölkədə ekoloji vəziyyətin pisləşməsi ilə əlaqəli ekoloji riskləri yüksək səviyyəyə gətirib çıxarır. Cəmiyyətin artan ehtiyaclarının qarşılanması üçün ətraf mühitə incəliklə təsir göstərən məhdud resurslardan mütləq səmərəli istifadə edilməlidir ki, bu da dayanıqlı inkişaf xəttinə keçidə imkan verir. Bu qeyd edilənlər dövlətin ənənəvi sosial-iqtisadi artım konsepsiyasından ayrılmasını və sosial-ekoloji-iqtisadi inkişafının dayanıqlı modelinin formalaşdırılmasını şərtləndirir. Qeyd edilən problemin həllində xüsusi rol iqtisadi rayonlara, o cümlədən onların tabeliyində olan kənd ərazilərinə verilməlidir.

Dünya Bankının məlumatında qeyd edilir ki, əhalinin həyat səviyyəsinin yüksəldilməsində əhəmiyyətli rola malik olan təbii ehtiyatlardan səmərəli istifadə edən aşagı gəlirli ölkələrin bir çoxu (təqribən 20-yə yaxın ölkə) son iyirmi il ərzində orta gəlirli ölkələr kateqoriyasına daxil olmuşdur. Bu ölkələrdə baş verən kateqoriya dəyişikliyinə infrastruktur, təhsil və səhiyyə sahəsində insan kapitalının artımını təmin edən təbii ehtiyatlar hesabına əldə edilən gəlirlərin investisiyalaşması nəticəsində nail olunmuşdur. Eyni zamanda təbii ehtiyatların dəyəri müşahidə edilən dövrdə təqribən iki dəfə çoxalmışdır ki, bu da bir sıra amillərlə yanaşı xammalın qiymətinin, iqtisadi cəhətdən təsdiq edilmiş ehtiyatların və s. artımı ilə izahlandırılır.

Siyasi və iqtisadi, ekoloji proseslərlə əlaqəli olan dünyada baş verən qlobal dəyişikliklər, elmi-texniki tərəqqinin yüksək inkişaf tempi ölkənin iqtisadi rayonlarının sosial-ekoloji-iqtisadi cəhətdən inkişaf etdirilməsinə yeni yanaşmanı tələb edir. Son dövrlərdə ölkələrin dayanıqlı inkişafa meylli olması gələcək nəsillər üçün də ətraf mühitin saxlanmasınının vacibliyi ilə şərtləndirilir.

Dayanıqlı inkişafa müxtəlif yanaşmalar əldə olan ehtiyatların gələcək nəslə ötürülməsi məqsədi ilə saxlanılmasını, mövcud resursların təkrar istehsalını, ətraf mühitdə baş verən qloballaşma dəyişikliklərini əks etdirən cəmiyyətin inkişaf traektoriyasının dəyişməsini şərtləndirir. Son illərdə Azərbaycanda dayanıqlı inkişafı təmin etmək məqsədilə ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə edilməsinin hüquqi bazasının yaradılması istiqamətində "*Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair* 2010-2014-cü *illər üçün* əlavə *tədbirlər planı*" hazırlanaraq həyata keçirilmiş, *"Azərbaycan Respublikasında 2019-2022-ci illər üçün ekoloji siyasətin əsas istiqamətləri"* üzrə Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tədbirlər planı işləyib hazırlamışdır.

Son illərdə Azərbaycanın kənd ərazilərinin inkişafı qeyri-stabilliyi ilə xarakterizə olunmuş, bir sıra sosial-iqtisadi problemlər səbəbindən (işğal edilmiş ərazilərdə infrastrukturun dağıdılması və yararsız hala salınması) bazar münasibətləri şəraitində daha da dərinləşmişdir. Ölkənin aqrar sənaye kompleksinin istehsal-emal-tədarük sahələrinin qeyri stabilliyi kənd yerlərində böhran vəziyyətinin yaranması, kənd əhalisinin həyat səviyyəsinin aşağı düşməsi, urbanizasiyanın dərinləşməsi, kənd təsərrüfatı əməyinin prestijinin azalması və kadr axını ilə nəticələnir. Bununla baglı, dövlətin aqrar siyasətinin əsas məqsədində və kənd təsərrüfatının inkişafı Dövlət proqramının həyata keçirilməsi sferasında ilk prioritet olaraq kənd ərazilərinin dayanıqlı və səmərəli inkişaf modelinin formalaşması durur. Bu zaman dayanıqlı inkişaf xəttinə keçid ölkənin iqtisadi rayonlarının əsas xüsusiyyətlərinin nəzərə alınması ilə həyata keçirilməlidir. Azərbaycan Respublikasının iqtisadi rayonlarının böyük əksəriyyəti aqrar istiqamətə xarakterik olduğu üçün kənd ərazilərində uzunmüddətli perspektiv turizm istiqamətlərinin və turizm sferasının inkişaf strategiyasının müəyyənləşdirilməsi məsələlərinin həllini aktual edır və şərtləndirir.

Bununla belə, kənd turizminin Avropa ölkələrində inkişaf etməsinə baxmayaraq, Azərbaycan üçün də bu növ turizm fenomeni nisbətən yenidir. Azərbaycanda turizm-rekreasiya zonalarının aktiv formalaşması turistlərin sayının artması ilə əlaqələndirilir və onun

tarixi, dini, ekolji, istirahət, saglamlıq və digər növ turməhsulların saxlanılmasının və onlar üzrə xidmətlərin göstərilməsinin vacibliyini əks etdirir. Belə ki, kənd turizmi yalnız ölkənin rəqabətqabiliyyətinin yüksəldilməsini deyil, eyni zamanda əhalinin həyat keyfiyətinin yüksəldilməsi ilə kənd ərazilərinin iqtisadi yüksəlişini də təmin edir. Kənd ərazilərinin dayanıqlı inkişafa keçməsinin vacibliyi kənd turizminin formalaşması və inkişafının nəzəri və metodiki aspektlərinin dərindən öyrənilməsini tələb edir və dissertasiyanın tədqiqatını şərtləndirir. Bu baxımdan kənd turizminin səmərəli təşkili əsasında kənd əhalisinin yaşayış səviyyəsinin yüksəldilməsi məsələlərinin həllinə istiqamətləndirilmiş tədqiqat işi xüsusi aktuallıq kəsb edir.

Respublikada dayanıqlı inkişafa yanaşmaların təkmilləşdirilməsi problemlərinə tanınmış iqtisadçı alimlərin çoxlu sayda əsərləri həsr olunmuşdur. Əhalinin həyat səviyyəsinin yüksəldilməsində turizm sferasının konseptual əsasları Abbasova Q. F., Bilalov B. Ə., Cabbarov Ə. X., İsmayılov V. İ., Əsgərov Ə. T., Əlirzayev Ə. Q., Quliyev E.A., Qılıncov B. V., Məmmədov E. Q. və digər yerli alimlərin əsərlərində tədqiq edilmişdir.

Turizm sferasının inkişaf etdirilməsi ilə bağlı problem məsələlərin təddidinə fundamental yanaşmalar rus və digər xarici ölkələrin alimlərindən Anikin A. V., Balabanova A. A., Vijina İ. Q., Duqina Y.A., Krivulya O. O., Selivanova S. S., Charles V. və s. əsərlərində əks etdirilmişdir.

Bununla belə, əhalinin həyat səviyyəsinin yüksəldilməsində kənd ərazilərinin dayanıqlı inkişafı probleminin ayrı-ayrı aspektləri az tədqiq edilmiş və əlavə elmi əsaslandırma tələb edir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan respublikasının iqtisadi rayonlarında kənd turizmi ilə məğul olan kənd sakinləri və sahibkarlar təşkil edir. Predmeti isə kənd ərazilərinin dayanıqlı inkişafının əsasını təşkil edən kənd turizminin formalaşdırılması və inkişafı prosesində yaranan təşkilati-iqtisadi və sosial-ekoloji münasibətlərin aşkar edilməsidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi kənd turizminin əsasında kənd ərazilərinin dayanıqlı inkişafının prioritet istiqamətlərinin nəzəri və metodiki əsasladırılmasıdır.

Qarşıya qoyulan məqsədlərə nail olmaq aşağıdakı vəzifələrin formalaşdırılması və həllini müəyyən etmişdir:

- kənd turizminin mövcud təriflərin məzmunundan fərli olaraq aydınlaşdırılması;
- kənd turizminin inkişaf etdirilməsi ilə bağlı turistlərə xidmət göstərməklə məşğul olmaq istəyənlər arasında yeni turizm növü ilə məşğul olmaq istəyi sorğusunun keşirilməsi;
- turizm müəssisələrinin gəlirləri ilə turistlərin sayı arasındakı əlaqənin proqnozlaşdırılmasının reqressiya modelinin qurulması;
- kənd ərazilərinin turizm cəlbediciliyinə görə qiymətləndirilməsinə yeni metodiki yanaşmanın işlənilməsi əsasında kənd turizmi potensialından istifadənin səmərəliliyinin qiymətləndirilməsi məqsədilə iqtisadi rayonların müvafiq səviyyədə təsnif edilməsilə sistemləşdirilməsi;
- nisbətən inkişaf etmiş kənd ərazilərinə malik olan rəqabətqabiliyyətli kənd turizmi rayonunun fərqli sferalarının (sosia-ekoloji-iqtisadi) monitorinqi modelinin işlənilməsi.

**Tədqiqatın metodları.** Tədqiqat zamanı qarşıya qoyulan məqsədə uyğun olaraq bir sıra mütodlardan istifadə edilmişdir. Burada əhalinin həyat səviyyəsinin tədqiqinin, rəqabətliliyin əhalinin həyat səviyyəsinin yüksəldilməsinin təmin edilməsində və regionun inkişafında kənd turizminin rolunun müəyyənləşdirilməsində müqayisəli təhlil metodundan istifadə edilmişdir. Azərbaycanda turizmin investisiya cəlbediciliyi və resurs potansialının qiymətləndirilməsi üçün matris metodundan istifadə edilmiş və rəqbət qabiliyyətin göstəricilərinin vaciblik dərəcəsinə görə sıralanması müəllif tərəfindən təklif edilən metodika əsasında işlənilmişdir. Səyahət agentliklərinin tabeliyində olan turizm müəssisələrinin gəlirləri və göndərilmiş turistlərin sayı arasındakı əlaqənin müəyyənləşdirilməsi zamanı xətti reqressiya tənliyindən istifadə edilmişdir. Tədqiqat çərçivəsində ərazinin turizm cəlbediciliyinin qiymətləndirilməsində taksonometrik metoddan istifadə edilmiş və əhalinin həyat səviyyəsinin yüksəldilməsində kənd turizminin inkişafının qiymətləndirmə alqoritmi və metodikasından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**: Dissertasiya işində müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

1. “Dayanıqlı inkişaf” anlayışının müəyyənləşdirilməsinə dair mövcud elmi-nəzəri və konseptual yanaşmalar sistemləşdirilmiş, “regionun rəqabət qabiliyyətliliyi” və “ərazilərin dayanıqlı inkişafı” kateqoriyalarının qarşılıqlı əlaqə mexanizmi mövqeyindən regionun dayanıqlı inkişafının formalaşmasında onun rəqabət qabiliyyətinin yüksək payının olduğu əsaslandırılmışdır.

2. Turist axınının formalaşmasında kənd turizminin əlverişli istiqamətləri müəyyənləşdirilmiş, kənd turizminin kənd əhalisi və turistlər üçün sosial-ekoloji-iqtisadi üstünlükləri elmi cəhətdən əsaslandırılmışdır.

3. Kənd ərazisinə məzsus turizmin təbii və mədəni-tarixi potensiallarının turizm resursuna çevrilməsi elmi cəhətdən əsaslandırılmaqla qeyd edilmiş, turistlərin yerləşdirilməsi, qidalanması və s. xidmətlər paketi tərtib edilməklə regionun turizm məhsulunun yaradılmasının yeni konsepsiyası təklif edilmişdir. Bu konsepsiyanın realizasiyası mexanizmi çərçivəsində istənilən regionun turizm potensialının qiymətləndirilməsinə vahid yanaşma metodikasının olmadığı sübuta yetirilmişdir.

4. Kənd turizminin genişləndirilməsi əsasında regionun investisiya cəlbediciliyi və əhalinin həyat səviyyəsi göstəriciləri arasında əlaqənin müəyyənləşdirilməsi üçün tədqiqtda məqsədli matrisdən istifadə edilmişdir. Bu göstəricilərin qiymətlərindən asılı olaraq ölkələrin rəqabət qabiliyyətli parametrlərinin inteqral qiymətləndirilməsini müəllif matrisə istinad edərək interperetasiya etmişdir. Ölkənin rəqabət qabiliyyətliyinin kompleks göstəricisini müəyyən edən metodika üzrə onların təşkil edici elementləri vaciblik dərəcəsinə görə sıralanmışdır. Kənd ərazilərinin inkişaf etdirilməsinə innovasiyalı yanaşma vasitəsinin tətbiqinin kənd yerlərində əlavə gəlir mənbəyi yaratması, həmçinin ekoloji məhdudiyyətlər şəraitində kənd turizminin inkişafının regionların davamlı inkişafına müsbət təsirinin olduğu sübut edilmişdir.

5. Kənd əhalisinin kənd turizminin inkişafına münasibətinin müəyyən edilməsi məqsədlə Quba-Xaçmaz, Şəki-Zakatala, Gəncə-Qazax (Gəncə-Daşkəsən) regionlarının kəndlərində turistlərə xidmət göstərmək istəyən kən sakinləri və fərdi sahibkarlar arasında sorğu keçirilmişdir. Sorğunun nəticələri əsasında bu sfera ilə məşğul olmaq

istəyən yerli əhalinin əlavə gəlir əldə etmək arzusunun olduğu müəyyən edilmiş və bu turizm növü ilə məşğul olmağa meylli insanların aktivlik göstərdikləri əsaslandırılmışdır.

6. Turizm sferası müəssisələrinin gəlirinin turistlərin sayından asılılığının reqressiv modeli $y_{xi} = 16,926 + 2,64934$ verilmişdir. Tapılmış sərbəst hədd ($a_0$), reqressiya əmsalı ($a_1$) və korrelyasiya əmsalı ($r_{xy}$) statistik əhəmiyyət baxımından qiymətləndirilmişdir. Həmçinin, dayanıqlı inkişafın strateji vahidlərindən biri olan kəndin inkişaf etdirilməsinə əlverişli şəraitin yaradılmasının və kəndin sosial infrastrukturunun inkişaf etdirilməsinin yerli əhalinin həyat tərzinin yaxşılaşdırılmasında mühüm rolu qeyd edilmişdir. İnvestisiyanın bu sferaya cəlb edilməsi sosial infrastrukturun inkişafını formalaşdırır, kənd yerlərinə turistlərin cəlb edilməsini sürətləndirir, həmçinin yeni iş yerləri yaradılmasında, əhalinin məşğulluğunun təmin edilməsində və sakinlərin stabil gəlir əldə etməsində mühüm rol oynayır.

7. Regionlarda kənd turizmi potensialının qiymətləndirilməsi üçün mərhələli blok-sxem təklif edilmişdir. Blok-sxemdə kənd turizminin inkişaf etdirilməsi baxımından nisbətən potensiallı ərazilərin seçilməsi, unikal kənd turizmi resurslarının seçilməsi və qiymətləndirilməsi, kənd turizmi məhsullarının formalaşdırılmısı və təşviqi və s. mərhələlərin icra edilməsi təklif edilir. Həmçinin, ərazinin turizm cəlbediciliyinə görə qiymətləndirilməsində taksonometrik metod tətbiq edilməklə iqtisadi rayonlar yüksək, orta və aşağı səviyyədə təsnif edilərək sistemləşdirilmiş və onların cəlbedicilik səviyyəsi müvafiq $R_i \leq 0,024$; $0,024 \leq R_i \leq 0,044$ və $0,044 \leq R_i$ kriteriyalar əsasında müəyyənləşdirilmişdir. Hesablama nəticəsində sistemləşdirilmiş regionların kənd turizmi potensialına malik olmasının gələcəkdə bu ərazilərdə böyük turizm kompleksləri yaradılmasını şərtləndirdiyinin nəzərə alınması qeyd edilmişdir.

8. Quba-Xaçmaz iqtisadi rayonunda kənd turizmi ilə məşğul olan sakinlərin sorgusu əsasında xərclər smetası tutulmuş və gündəlik xərclərin orta qiymətinin 35 manat olduğu müəyyənləşdirilmişdir. Eyni zamanda, ölkənin kənd ərazilərinin inkişaf etdirilməsinin sosial-ekoloji-iqtisadi qiymətləndirilməsinin kompleks göstəricilər sistemi

təklif edilmiş və bu çərçivədə Quba-Xaçmaz iqtisadi rayonunda kənd turizminin inkişaf modeli verilmişdir.

**Dissertasiya işinin elmi yenilikləri** özündə aşağıdakı elementləri ifadə edir:

- mövcud təriflərin məzmunundan fərqli olaraq aydınlaşdırılmışdır ki, "kənd turizmi" turist-informativ fəaliyyətin aktiv növüdür, bir tərəfdən, turistlərə keyfiyyətli xidmətin göstərilməsi tələbatını, digər tərəfdən isə mövcud resurslardan səmərəli istifadə etməklə kənd turizminin aktiv inkişafı əsasında kənd əhalisinin məşğulluğunun yüksəldilməsini, onların gəlirlərinin artımını və həyat səviyyəsinin yüksəldilməsini, kəndin ekoloji sisteminin saxlanılmasını və sosial-iqtisadi səmərənin əldə olunmasını, son nəticədə ölkə iqtisadiyyatının inkişafını təmin edir;
- kənd turizminin inkişaf etdirilməsi ilə bağlı kənlilər (turistlərə xidmət göstərməklə məşgul olmaq istəyənlər) arasında yeni turizm növü ilə məşğul olmaq istəyi sorğusu keçirilmiş, sorğu materiallarına əsasən kənd əhalisinin əlavə gəlir əldə etmək arzusu müəyyənləşdirilmiş, arzu edənlərin çox hissəsində fermerlərin və digər ölkələrdə işləyib gəlmiş yerli insanların aktivliyi aşkarlanmışdır;
- turizm müəssisələrinin gəlirləri ilə turistlərin sayı arasındakı əlaqənin proqnozlaşdırılmasının reqressiya modeli qurulmuş, modelin statistik əhəmiyyəti t-Styudent və Fişer-Snedekor kriteriyasına görə qiymətləndirilmişdir;
- taksonometrik metoddan istifadə etməklə kənd ərazilərinin kənd turizminə cəlbediciliyə görə qiymətləndirilməsinə yeni metodiki yanaşma təklif edilmiş, kənd turizminin inkişafına təsir göstərən amillər nəzərə alınmaqla kənd turizmi potensialından istifadənin səmərəliliyinin qiymətləndirilməsi alqoritmi işlənilmiş və kənd turizminin inkişaf etdirilməsi üçün əlverişli rayonlar üç səviyyədə (yüksək, orta və aşağı) təsnif edilməklə sistemləşdirilmişdir;
- inkişaf etmiş kənd ərazilərinə malik olan rəqabətqabiliyyətli kənd turizmi rayonunun yaradılması məqsədi ilə iqtisadi rayonunun (Quba-Xaçmaz) sosial, ekoloji və iqtisadi sferalarının monitorinqi modeli təklif edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat zamanı turizm sferası müəssisələrinin istehsal və xidmət potensialının qiymətləndirilməsi metodologiyasından təkcə turizm müəssisələri üçün deyil, digər sahələrin müəssisəsi üçün istifadə etmək olar.

Dissertasiyada əldə edilən nəticələrdən Azərbaycanın turizm sənayesinin, xüsusilə, kənd ərazilərində fəaliyyət göstərən müəssisələrin istehsal potensialının artırılmasında, kənd turizmi potensialından istifadənin səmərəliliyinin qiymətləndirilməsi prosesində istifadə edilə bilər. Həmçinin əldə edilən nəticələrdən bu sahənin perspektiv inkişafının proqnozlaşdırılmasında və regionların icraedici orqanlarının fəaliyyətində sosial-iqtisadi inkişafın kompleks məqsədli proqramlarının işlənilməsində istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi** -Tədqiqatın əsas nəticələri yerli və xarici jurnallarda 11 məqalədə dərc edilmişdir. Üçü xaricdə, biri RİNC, ikisi beynəlxalq xülasələndirmə və indeksləmə sistemləri bazasında dərc olunmuşdur. 4 beynəlxalq konfrans, o cümlədən 1 xarici, 3 yerli və 2 tezis materiallarında çap olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Kooperasiya Universiteti.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi girişdən (14914 işarə), üç fəsildən (I fəsil-79435 işarə; II fəsil-88326 işarə və III fəsil-57568 işarə), nəticə və təkliflərdən (4604işarə), istifadə edilmiş ədəbiyyat siyahısı (17196 işarə) üzrə ümumi həcmi 262043 işarədir. Dissertasiyanın işarə sayı cədvəllər, şəkillər, istifadə olunmuş ədəbiyyat siyahısı və əlavələr istisna olmaqla 244020 işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin giriş hissəsində mövzunun aktuallğı və işlənilmə səviyyəsi, tədqiqatın məqsəd və vəzifələri, obyekti və predmeti, tədqiqatın metodları, müdafiəyə çıxarılan əsas müddəalar, elmi yenilikləri, nəzəri və praktiki əhəmiyyəti və s. göstərilmişdir.

Dissertasiya işinin birinci fəsli "**Əhalinin həyat səviyyəsinin və kənd turizminin təşkilinin nəzəri əsasları**" adlanır. Burada əhalinin

həyat səviyyəsi və regionun dayanıqlı inkişafının nəzəri əsasları hərtərəfli tədqiq edilmiş, əhalinin həyat səviyyəsinə birbaşa və dolayı təsir göstərən amillərə kompleks şəkildə baxılmışdır. İşdə dayanıqlı inkişaf anlayışının tam məzmunlu xarakteristikasının aydınlaşdırılması üçün tədqiqatçı tərəfindən konservativ, təkamül və sistemli yanaşmalar sistemləşdirilmişdir.

Kənd ərazilərində dayanıqlı inkişafın tədqiq edilməsi məqsədi ilə dissertasiya işində həmin anlayışın daha ətraflı nəzərdən keçirilməsi məsələlərinə baxılır. Kənd ərazilərinin dayanıqlı inkişafı yalnız yerli əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına deyil, eyni zamanda gələcək nəsil üçün təbiətin davamlı saxlanılmasına istiqamətləndirilən balanslaşdırılmış kompleks tədbirlər başa düşülür. Tədqiqat işində göstərilir ki, regionların dayanıqlı inkişafına keçid prosesi kənd ərazilərinin resurs potensialının tədqiq edilməsinin vacibliyini şərtləndirir, bu da öz növbəsində regionların davamlı inkişafına aid olan mülahizələrin qabaqcadan müəyyənləşdirilməsinə və kəndin inkişaf etdirilməsində prioritet istiqamətlərin təyin edilməsinə əsaslanan təkliflərin işlənilməsinə imkan verir. Bu istiqamətlərin həyata keçirilməsində təkcə kənd ərazilərinin ekoloji mühitinin vəziyyəti deyil, eyni zamanda regionun sosial-iqtisadi inkişaf səviyyəsi də mühüm rol oynayır, bu məsələlərin həlli üçün kənd ərazilərinin rəqabətliyinin qiymətləndirilməsi aparılmaqla dayanıqlı inkişafda onun təmin edici rolunun müəyyənləşdirilməsi vacib şərtlərdən biridir.

İ.Beqqin regionun rəqabət qabiliyyətliliyinə aid fikirlərində qeyd edilir ki, regionun rəqabət göstərmə bacarığı onun cəlb etmə göstəricisini müəyyənləşdirən əsas atributlarından, o cümlədən yerləşmə ərazisindən, iqtisadi agentlərin güclü-zəif tərəflərindən və s. asılıdır. Eyni zamanda tədqiqatçıların çox hissəsinin, xarakterik əlamət kimi, resursların mövcudluğu şəraitində tələbatın ödənilməsi imkanlarını vurğulaması göstərir ki, hazırda tələbatın ümumi səviyyəsinin artması nəticəsində resurs potensialının həcminin azalması müşahidə edilir və resurslardan qeyri səmərəli istifadə edilməsi yalnız ərazinin rəqabətlik səviyyəsinin azalmasına deyil, həmçinin onun tükənməsinə gətirib çıxarır ki, bu da ümumi dayanıqlı inkişafa ziddir. V.V.Kovalyev tədqiqatlarında müəyyənləşdirmişdir ki, ölkənin iqtisadi məkanda rolu yeri

əhalinin yüksək həyat səviyyəsinin təmin edilməsi və regionda olan potensialdan istifadə edilməsi imkanını həyata keçirməkdən ibarətdir.

Tədqiqat işində qeyd edilir ki, kənd ərazilərinin dayanıqlı inkişafı formalaşdırıldıqda onun resurs potensialının təkrar istehsalı və saxlanılmasına, o cümlədən ətraf mühitin pozulmasına gətirib çıxaran təbii ehtiyatlara xüsusi diqqət yetirilməlidir. Odur ki, əhalinin həyat tərzinin yaxşılaşdırılmasına istiqamətləndirilmiş sosial-iqtisadi inkişafın yüksək artımına nail olduqda, ekoloji təhlükəsizliyin saxlanılması məqsədi ilə kənd ərazilərinin resurs potensialının düzgün bölüşdürülməsi vacib şərt hesab edilir. Bu göstərilənlər əsasında, müəllif regionun sosial, iqtisadi və ekoloji mühitinin harmonik inkişafında tətbiq edilən ərazilərin dayanıqlı inkişafının iqtisadi prinsiplərini vermişdir.

Kənd ərazilərinin inkişafında struktur uyğunsuzluğu regional siyasətdə kəndin saxlanılması və inkişaf etdirilməsi məqsədi ilə yeni prioritet istiqamətlərin işlənilməsini tələb edir. Kənd ərazilərinin durğun vəziyyətdən çıxarılması yollarından biri onların dayanıqlı inkişaf xəttinin seçilməsidir və bu istiqamətin həyata keçirilməsində təkcə kənd ərazilərinin ekoloji mühitinin vəziyyəti deyil, eyni zamanda regionun sosial-iqtisadi inkişaf səviyyəsi də mühüm rol oynayır.

Bu fəsildə qeyd edilir ki, Azərbaycanda dayanıqlı iqtisadi inkişafın təmin olunması şəraitində əmək bazarının inkişafina yönələn islahatlar ölkəmizin həmin sahədə reytinqinin getdikcə artmasına və nəticədə əhalinin həyat səviyyəsinin yüksəlməsinə imkan verir. Dünya İqtisadi Forumunun "*2019 Qlobal Rəqabətlilik Hesabatı*"nda 137 ölkə arasında 35-ci yerdə qərarlaşan Azərbaycan, eyni zamanda əmək bazarının səmərəliliyi üzrə 17-ci yeri tutmuş, bu sıralamada digər bütün MDB ölkələrindən, eyni zamanda İsrail, Fransa, İsveç, Belçika, Avstriya, Qətər, Yaponiya, İspaniya, İtaliya, Finlandiya, Latviya, Çin, Malayziya və s. ölkələrdən öndə yerləşmişdir.

Tədqiqat işində qeyd edilir ki, kənd ərazilərinin dayanıqlı inkişafı formalaşdırıldıqda onun resurs potensialının təkrar istehsalı və saxlanılmasına, o cümlədən ətraf mühitin pozulmasına gətirib çıxaran təbii ehtiyatlara xüsusi diqqət yetirilməlidir. Odur ki, əhalinin həyat tərzinin yaxşılaşdırılmasına istiqamətləndirilmiş sosial-iqtisadi inkişafın yüksək artımına nail olduqda, ekoloji təhlükəsizliyin saxlanılması

məqsədi ilə kənd ərazilərinin resurs potensialının düzgün bölüşdürülməsi vacib şərt hesab edilir.

Yuxarıda göstərilənlərə əsaslanaraq tədqiqat işində regionun sosial, iqtisadi və ekoloji mühitinin harmonik inkişafında tətbiq edilən ərazilərin dayanıqlı inkişafının resurslardan istifadənin iqtisadi rasionallığı, ərazilərin sosial-iqtisadi və ekoloji göstəricilərinin dayanıqlığı, ərazilərin inkişafının optimallaşması, özünü təmin etmə və ərazilərin rəqabət qabiliyyətliyi kimi iqtisadi prinsipləri formalaşdırmağa nail olunmuşdur[1]. Burada müəllif qeyd edir ki, fikrimizcə, əhaliinin həyat səviyyəsi ölkənin rəqabət qabiliyyətindən birbaşa asılıdır, bu isə regionun dayanıqlı inkişafı və rəqabət qabiliyyətliyi kimi qeyd edilmiş iki kateqoriyanın qarşılıqlı əlaqəsinin mövcudluğu hipotezini təsdiq edir və regionların dayanıqlı inkişafının prioritet istiqamətlərinin tədqiq edilməsində kənd turizminin rolunun müəyyənləşdirilməsini şərtləndirir.

Ölkəmizdə turist axınının formalaşması üçün əlverişli məqam kimi kənd turizminin inkişaf istiqamətləri şəkil 1-də verilmişdir.




**Şəkil 1.Turist axınını formalaşdıran kənd turizminin əsas inkşaf istiqamətləri**

---

[1] 1.İsmayılov, V.İ. Azərbaycanda aqroturizmin inkişaf istiqamətləri // -Bakı: Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi İqtisadiyyat Elmi Tədqiqat İnstitutu, -2017, -№2, -s.25-29

Kəndin sosial infrastrukturunun inkişaf dinamikasına əsasən işdə göstərilir ki, o, şəhərlə müqayisədə bir çox göstəricilərdə geri qalır və bu da kənd ərazilərinin həyat fəaliyyəti üçün qeyri-komfortlu olduğunu müəyyənləşdirir, nəticədə kənd əhalisinin axınına və miqrasiyasına gətirib çıxarır. Bu yaranmış vəziyyət isə kəndin saxlanılması və inkişafı məqsədi ilə ölkənin regional siyasətində yeni prioritet istiqamətlərin seçilməsini tələb edir. Azərbaycanda kənd turizminin aktiv inkişaf etdirilməsi məqsədi ilə 2020-ci ildə 90,0 milyon manat güzəştli kredit verilmişdir. Bu sahədə planlaşdırılan layihələrin reallaşdırıması 4500-dək yeni iş yerinin açılmasına imkan yaradır. Tədqiqatçı bu sahədə aparılmış tədqiqt işlərinin nəticələri və öz şəxsi mülahizəsinə əsaslanaraq qeyd edir ki, turizm sferasında kənd turizmi aktiv fəaliyyət növüdür, bir tərəfdən, turistlərə keyfiyyətli xidmətin göstərilməsi tələbatını, digər tərəfdən isə kənd əhalisinin məşğulluğunun yüksəldilməsini, onların gəlirlərinin artmasını və həyat səviyyəsinin istiqamətlərdə inkişaf üstünlüklərinin həm kənd əhalisi üçün, həm də turistlər üçün əlverişli olduğu qeyd edilir. Beləliklə, əldə edilmiş nəzəri təhlil və yuxarıda göstərilən məsələlərin həlli regionun iqtisadi vəziyyətinin yüksəldilməsini, son nəticədə kəndin ekoloji sisteminin saxlanılmasını və sosial-iqtisadi səmərənin əldə olunmasını təmin edir. Eyni zamanda, tədqiqat işində kənd turizminin sosial-ekoloji-iqtisadi kənd turizmi potensialının qiymətləndirilməsinin metodiki əsasını və Azərbaycanda kənd turizminin mövcud vəziyyətinin təhlili zərurətini yaradır.

Tədqiqatın **“Azərbaycanda kənd turizminin mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi”** adlanan ikinci fəslində iqtisadi rayonların turizm potensialının qiymətləndirilməsi üçün onun turizm və istirahət resurslarının mövcudluğu potensialının araşdırılmasının vacibliyini vurgulayaraq müəllif qeyd edir ki, bu cür araşdırma turizmdə perspektivli sahələrin müəyyənləşdirilməsi və regional rəqabətqabiliyyətli turizm məhsulunun formalaşdırılmasına imkan verəcəkdir. Tədqiqatçının fikrincə, regionun turizm potensialının Turizm sənayesində göstərilən xidmətlərin həcminin artması yeni iş yerlərinin sayının digər müəssisələrə nisbətən daha da çox artmasına gətirib çıxarır. Eyni zamanda turizm xidmətlərinə tələbatın artması və bu sferada yeni iş yerlərinin yaranması minimum vaxt aralığına malikdir. Lakin çox əfsusluqla qeyd etmək lazımdır ki, Azərbaycana turist

axınının davam etməsinə baxmayaraq, turizm sənayesinin ölkə iqtisadiyyatına təsiri hələlik əhəmiyyətli dərəcədə hiss edilmir. Bu məqsədlə də, turizmdə real investisiyaların artırılması, mehmanxana tələbatı səviyyəsinin yüksəldilməsi, mehmanxanalarda yerli və beynəlxalq turistlərin nisbətən aşağı qiymətlərlə yerləşdirilməsi, bu sahədə ixtisaslaşdırılmış kadr çatışmazlığının aradan qaldırılması və s. turizm sənayesini bu sahənin inkişafına dövlətin qoyduğu xərclərlə adekvat edir. A.V.Vinoqradov turizm potensialını iqtisadiyyatın, onun sahələrinin, müəssisə və təşkilatların turizm məhsulunun formalaşması və onların müxtəlif ölkə əhalisinin turizm xidmətlərinə olan tələbatının ödənilməsi bacarığı hesab edir[2]. Eyni zamanda, regionun turizm potensialı mürəkkəb bir sistemdir, onun resurs, istehsal və iqtisadi potensialını özündə birləşdirir. Beləliklə, bu sahədə tədqiqat aparan müəlliflərin əksəriyyəti turizm potensialını regionun resurs potensialı əsasında müəyyənləşdirməyi təklif edirlər. Bu təkliflərlə razılaşmaq mümkündür, belə ki, onun realizasiyası turistlərin tələbatını təmin etmək məqsədi ilə turizm məhsulunu formalaşdırır. Həmçinin qeyd etmək lazımdır ki, regionun (ərazinin) turizm potensialı yalnız onun resursları hesabına formalaşmır, burada rəqabətqabiliyyətli turizm məhsulunun yaradılmasına imkan verən resursların səmərəli istifadə edilməsi əsas rol oynayır.

Respublikanın iqtisadi rayonları öz ərazilərində turizmi inkişaf etdirməklə büdcələrinə əlavə gəlirlərin daxil olmasını, kiçik biznesin aktivləşməsini, mədəniyyət müəssisələrinin (nəqliyyat, rabitə, ictimai iaşə, ticarət, xalq sənətləri) işlə təmin edilməsini təmin edir və turizm məhsullarının yeganə istehsalçısı kimi çıxış edir. Bu zaman turistlərin yerləşdirilməsi, qidalanması və s. üçün turizm xidmətlər paketi tərtib edilir və turistlərin istifadəsinə verilir. Turizm potensialının qiymətləndirilməsində mövcud olan metodikalar turizmin inkişafına təsir göstərən subyektiv amillər toplusunu nəzərə almaqla kompleks yanaşmadan istifadə edilməsinə istiqamətləndirilir. Regionun turizm potensialının qiymətləndirilməsi qarışıq sahələrin qarşılıqlı əlaqə səviyyəsinin yüksək olması ilə şərtləndirilir, həmçinin bu səviyyə regionda

---

[2] Виноградов, А.В. Методические основы управления туристским потенциалом региона / соискание ученой степени кандидата экономических наук, автореферат дис./ -Москва, -2010. -22 с.

turizmin formalaşmasına təsir edir, eyni zamanda regionun iqtisadiyyatı üçün turizm sahəsinin sinergetik səmərəsini müəyyənləşdirir. Bu da öz növbəsində ərazinin (iqtisadi zonanın) rəqabət qabiliyyəti səviyyəsinin formalaşmasında turizmin bir sahə kimi vacib rolunu qeyd etməyə imkan verir.

Azərbaycanda kənd turizminin cəlbediciliyinin qiymətləndirilməsinə metodiki yanaşmanın tətbiqi məqsədi ilə kənd yerlərində turizmin təşəkkülü və formalaşmasına təsit edən əsas amillərin müəyyənləşdirilməsində kompleks ön şətrlərin nəzərə alınması onun hərtərəfli qiymətləndirilməsinə imkan yaratmış olur.

Fikrimizcə, müasir şəraitdə kənd ərazilərində turizm potensialının qiymətləndirilməsinə vahid yanaşma metodikası yoxdur və müəlliflərin çoxu fərdi metodiki hesablamalar təklif edirlər ki, bunlar da kənd ərazisinin inkişaf xüsusiyyətlərinin nəzərə alınmasına imkan vermir. Odur ki, tədqiqat işində kənd turizminin genişləndirilməsi əsasında kənd ərazilərinin inkişaf etdirilməsinə innovasiyalı yanaşmanın tədqiqi vacib şərt hesab edilir.

ÜDM-in struktur tərkibinin təhlilindən göründüyü kimi, 2010-2020-ci illərdə iqtisadi fəaliyyət növləri üzrə ümumi daxili məhsulun istehsal həcminin ən çox artım ticarət, nəqliyyat vasitələrinin təmirində 3,06 dəfə, maliyyə və sığortada 3,34 dəfə, daşınmaz əmlakla əlaqədar əməliyyatlarda 3,59 dəfə, dövlət idarəetməsi və müdafiə, sosial təminatda 3,35 dəfə, əhaliyyə səhiyyə və sosial xidmətlərin göstərilməsi sektorlarında 2,62 dəfə, emal sənayesində 2,08 dəfə artım qeyd edilmişdir.

Ölkənin rəqabət qabiliyyətliyinin qiymətləndirilməsində kapital, əmək və əmtəə bazarları; investisiya cəlb ediciliyi; iqtisadi münasibətlərin dövlət tənzimlənməsi konsepsiyalarının formalaşması mühüm şərtlərdəndir. Qeyd etdiyimiz qiymətləndirmə konsepsiyalarının formalaşdırılması əsasında ölkənin rəqabət qabiliyyətliyinin təşkilediciləri şəkil 2-də verilmişdir.

Dissertasiya işində ölkənin rəqabət qabiliyyətliyinin kompleks göstəricisini əks etdirən həyat səviyyəsi və ölkənin investisiya cəlbediciliyinin xüsusi çəkisinə müvafiq olaraq onların əhəmiyyəti müəyyən edilməklə belə bir nəticəyə gəlinir ki, ölkənin rəqabət qabiliyyətinin yüksəldilməsində bir çox tədqiqatçılar qiymətəmələgətirən

amillərin, o cümlədən əmtəə və xidmətlər, ehtiyat və maliyyə kimi amillərin artan təsirini nəzərə almır, bu amillər həm regional tələb, həm də regional təklif tərəfindən mütləq təhlil edilməlidir.




**Şəkil 2. Ölkənin rəqabət qabiliyyətlik konsepsiyalarının formalaşmasının təşkilediciləri**

Müəllifin fikrincə, ölkənin rəqabət qabiliyyətliyinin əsasında bazarların spesifikasını əks etdirən qiymət əmələ gətirən amillər durur və təhlilin metodiki təminatı üçün mövcud metodikanın alqoritmindən işdə istifadə edilmişdir. Müxtəlif müəlliflərin təklif etdiyi bazarın rəqabət qabiliyyətinin qiymətləndirilməsi məqsədi ilə Azərbaycanın rəqabət qabiliyyətliliyinin vahid və inteqral göstəricilərindən istifadə edilməklə müəllif tərəfindən yeni metodika təklif edilmişdir. Təklif edilən metodikanın fərqli cəhəti ondadır ki, seçilmiş göstəricilər əhəmiyyətlilik dərəcəsinə görə sıralanır və ölkənin rəqabət qabiliyyətliyi bu göstəricilər əsasında sıralanmaqla müəyyən edilir. Bu məqsədlə tədqiqat işində təklif edilən göstəricilərin hər birinin ayrılıqda hansı məqsəd üçün istifadəsi açıqlanmış, hesablamanın alqoritminin gözlənilməsi üçün ilk mərhələdə tədqiq edilən dövr üçün məlumatlar yığılmışdır.

İkinci mərhələdə ölkənin rəqabət qabiliyyətliyinin qiymətləndirilməsinin vahid göstəriciləri vaciblik dərəcəsinə görə 1-dən n-ə kimi sıralanmış, vacibliyinə görə bunların sırasında həyat səviyyəsi birinci göstərici kimi qəbul edilmişdir, sonrakı göstəricilər isə vacibliyinə

görə azalan qaydada sıralanmışdır. Üçüncü mərhələdə seçilmiş göstəricilər əsasında ölkənin rəqabət qabiliyyətliyinin qiymətləndirilməsinin vahid göstəriciləri və ötən ilin göstəricilərindən dəyişməsi meyli hesablanmışdır. Dördüncü mərhələdə müqayisə edilən ölkələr üzrə vahid göstəricilərin kəmiyyət qiymətlərinin hesablanması aparılır və onların sırasından ən çox say toplayan ölkələr müəyyən edilir. Bütünlükdə, Azərbaycan respublikasının müvafiq göstəricilərinin təhlilindən qənaətə gəlmək olar ki, ölkəmizə dünyada baş verən maliyyə-iqtisadi böhran praktiki olaraq az təsir etmişdir, lakin işsizlik, əhalinin həyat səviyyəsi, əmək haqqının yüksəldilməsi və s. istiqamətində dövlət tərəfindən müvafiq tədbirlərin həyata keçirilməsinə və bu istiqamətdə dünya ölkələrinin təcrübəsindən istifadə edilməsinə ciddi ehtiyac duyulur. Bu məqsədlə dünyada baş verən böhranın nəticələrinin aradan qaldırılması və ölkənin davamlı iqtisadi inkişafının təmin edilməsi, eyni zamanda ölkənin rəqabət qabiliyyətinin möhkəmləndirilməsi məqsədi ilə bizim tərəfimizdən kənd turizminin genişləndirilməsi əsasında kənd ərazilərinin inkişaf etdirilməsinə innovasiyalı yanaşmanın istifadə edilməsi təklif olunur. Təklif edilən bu vasitənin tətbiqi, kənd ərazilərinin inkişaf etdirilməsində kənd yerlərində əlavə gəlir mənbəyinin yaradılması ilə bərabər, ekoloji məhdudiyyətlər şəraitində kənd turizminin inkişafı, ölkənin pegionlarının dayanıqlı inkişafına köməklik göstərəcəkdir.

Bu fəsildə Azərbaycanda son dövrlərdə turizmin inkişafında əldə edilmiş nəticələrə əsaslanaraq qeyd edilir ki, turizm ölkə iqtisadiyyatının, o cümlədən kənd regionlarının inkişafında prioritet istiqamətlərdən biri hesab edilə bilər. Bu isə Bakı, Apşeron, Gəncə-Qazax (Gəncə Daşkəsən) və Naxçıvan MR iqtisadi rayonlarında fəaliyyət göstərən sanatoriya–kurort müalicələrindən, orada çıxarılan və müalicəvi əhəmiyyətə malik olan mineral sulardan, müalicəvi neft və palçıqlardan və s. istifadənin fasiləsiz fəaliyyətinin sürətləndirilməsi və ölkəmizdə turist–rekreasiya kompleksinin formalaşması ilə şərtləndirilir. Azərbaycan Respublikasında səyahət agentlikləri və turoperatorların mülkiyyət növü üzrə materialların təhlili göstərir ki, 2019-cu ildə ölkə üzrə Ümumi Daxili Məhsulun (ÜDM) strukturunda turistlərin yerləşdirilməsi və ictimai iaşənin xüsusi çəkisi 4,5% təşkil etmiş və bu da 2015-cı ilə nisbətən 0,8% artımın olduğunu göstərir. 2020-ci

ilin statistik məlumatlarına əsasən Azərbaycana 2019-cu ildə ümumi turizm məqsədi ilə gələn 2863,5 min nəfərdən 2095 min nəfəri müxtəlif növ turizm məqsəilə, o cümlədən kənd turizminin təşkili çərçivəsində kənd ərazilərində turistlərin yerləşdirilməsi məqsədi ilə sahibkarların təşkil etdiyi xüsusi yerlərdə yerləşdirilmişdir. 2014-cü ilin məlumatları ilə müqayisədə 2019-cu ildə bu göstəricinin artımı 32,6% təşkil etmişdir. Turistlərin həmin yerləşdirilmə çərçivəsində qohumlara, dostlara baş çəkmək, həmçinin digər turizm və s. məqsədilə ölkəmizə səyahət edən şəxslərin sayında 2014-cü illə müqayisədə 2019-cu ildə 218 min nəfər və ya 25,4% artım müşahidə edilmişdir ki, bu da sahibkarlarda kənd turizminin inkişaf etdirilməsi istiqamətində yüksək marağın olduğunu ifadə edir.

Hal-hazırda ölkəmizdə kənd turizminin təşkili aşağı səviyyəli rəqabət fəaliyyətini əks etdirir, çünki bu fəaliyyət sahəsi bir sıra problemlərin müqaviməti ilə rastlaşır, bunların da həll edilməsi dövlət orqanları və strukturlarının müdaxiləsi olmadan qeyri mümkündür. Burada, kənddə infrastrukturun tələb edilən səviyyədə olmamasından söhbət gedir. Belə ki, şəhər əhalisi kənd yerlərinə köçdükdə özlərinin həyat ritminin dəyişməsinə hazır deyildir. Kənd turizminin normativ-hüquqi bazasının lazımi səviyyədə olmaması, dövlət tərəfindən ona investisiyaların az miqdarda qoyulması və s. burada istirahət edənlərə aşağı keyfiyyətdə xidmətin göstərilməsinə gətirib çıxarır, bu da yalnız gigiyena şərtlərinin deyil, həmçinin təhlükəsizlik tələblərinin pozulması ilə nəticələnir.

Hazırda Azərbaycanda turizmin inkişaf etdirilməsi aspektində iqtisadi rayonların, o cümlədən uzun müddət ermənilərin baxımsız halda nəzarətində qalmış, lakin rəşadətli ordumuzun gücü və Ali Baş komandanın müdrik siyasəti nətivcəsində işğaldan azad edilmiş ərazilərdə prioritetlər müəyyən edilir. Burada xüsusi olaraq Fizuli şəhərində qısa bir zaman kəsiyində tikilmiş və bu yaxınlarda istifadəyə verilmiş Beynəlxalq hava limanını, Azərbaycan Respublikası Prezidentinin 5 yanvar 2022-ci il tarixli Fərmanı ilə *Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa ili"* elan edilməsini, həmçinin gələcəkdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində turizmin, o cümlədən kənd turizminin inkişaf etdiriıməsi ilə əlqəli tədbirlərə start verilməsini qeyd edə bilərik.

Kənd turizminin inkişaf etdirilməsinə olan münasibəti aydın etmək məqsədi ilə Quba-Xaçmaz, Şəki-Zaqatala, Gəncə-Qazax (İR-ların yeni bölgü üzrə Gəncə-Daşkəsən) regionlarının müxtəlif kəndlərində yaşan 250 nəfər arasında sorğu aparılmış və onun nəticələrinə əsasən aşağıdakılar qeyd edilmişdir: kənd əhalisinin əlavə gəlir əldə etmək arzusu vardır, lakin onların çox hissəsi yeni turizm növü ilə məşğul olmaqdan qorxurlar; kənd turizmi ilə məşğul olmağa ən çox fermerlər və az da olsa digər ölkələrdə işləyib gəlmiş yerli insanlar aktivlik göstərirlər. Onların bu sahədə məşğul olmaq istəyi digərlərinə nisbətən daha çoxdur.

Lakin bu növ turizmin inkişafı üçün arzu etməklə bərabər, vəsait də lazımdır, çünki bir çox kəndlilərin öz biznesini inkişaf etdirməsi üçün belə vəsaitləri yoxdur. Kənd ərazilərində turizm xidmətlərinin təhlili göstərir ki, kənd iqtisadiyyatının qeyri-kənd təsərrüfatı, o cümlədən turizm sferası üzrə fəaliyyət göstərən yeni bazarlara çıxması vacibdir. Rayonlarda kənd turizminin inkişafına bu cür yanaşmaların həyata keçirilməsi əhali üçün yeni gəlir mənbələri, məşğulluğun yüksəldilməsi, mədəni irsin saxlanılması kimi problemlərin həllinə, o cümlədən ölkə rayonlarının məhdudiyyətlərinin dayandırılmasına imkan verəcəkdir.

Beləliklə, Azərbaycanda kənd ərazilərinin dayanıqlı inkişafına keçidin təşkili məqsədi ilə ölkənin iqtisadi rayonlarının dayanıqlı inkişafının strateji istiqamətlərinin formalaşdırılması və burada həmin ərazilərin mövcud xüsusiyyətlərinin nəzərə alınması vacib şərtldir.

“**Əhalinin həyat səviyyəsinin yüksəldilməsində kənd turizminin rolunun artirilmasi yollari**” adlanan üçüncü fəsildə ölkəmizdə kənd turizminin inkişaf istiqamətlərini əhatə edən kompleks məsələlər təhlil edilərək göstərilir ki, dayanıqlı inkişaf ölkə rəhbərliyindən ekoloji təhlükəsizliyin təmin edilməsi şəraitində rayonların vacib sosial-iqtisadi məsələlərinin həll edilməsini tələb edir, bu da öz növbəsində innovasiyalı istehsalın, resursların qorunmasının və ərazilərin inkişafının yeni yollarının müəyyənləşdirilməsini şərtləndirir. Dayanıqlı inkişaf traektoriyasına keçid təkçə innovasiyalı istehsalın yaradılmasını deyil, həmçinin mütərəqqi resurqoruma texnologiyalarından istifadə edilməsi ilə yüksək istehsalat və istehlak tullantılarının azalmasını tələb edir ki, bu da Azərbaycan üçün xarakterikdir. Statistik məlumatlara

əsasən qeyd edə bilərik ki, 2005-ci ildə atmosfer havasına atılan ümumi çirkləndirici maddələrdən stasionar mənbələrin payına 52,9%, avtomobil nəqliyyatının payına isə 47,1% düşdüyü halda, bu göstərici 2020-ci ildə müvafiq olaraq 18,2% və 81,8% təşkil etmişdir. Göründüyü kimi, stasionar mənbələrdən atılan tullantıların payında 2,91 dəfə azalma, avtomobil nəqliyyatı tullantılarının payında isə 1,72 dəfə çoxalma müşahidə olunmuşdur. Müqayisə edilən dövrdə çirkləndirici maddələrin atmosfera havasına atılması 22 min ton və ya 2,1% artım olmuşdur. 2020-ci ildə iqtisadi fəaliyyət növləri və inqrediyentlər üzrə stasionar mənbələrdən atmosfera havasına atılan çirkləndirici maddələrin həcmi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda 0,2 min ton, sənayadə 110,5 min ton, tikintidə 1,2 min ton, ticarət, nəqliyyat vasitələrinin təmirində 0,6 min ton, anbar təsərrüfatı və rabitədə 34, 2 min ton təşkil etmişdir. Buradan aydın görünür ki, ən çox çirkləndirici maddə sənayedən və anbar təsərrüfatı və rabitədən atılmış, bunların da atmosferə atılan ümumi çirkləndirici maddələrin tərkibində xüsusi çəkisi müvafiq olaraq 75,3% və 2,3% olmuş və müəyyənləşdirilmişdir ki, istehsal-təsərrüfat fəaliyyətində məşğul olan müəssisələrdən atmosfer havasına atılan ümumi çirkləndirici maddələrin xüsusi çəkisi ümumi tullantıların tərkibində ən yüksək göstəriciyə malikdir.

Azərbaycanda turizm sferasının kənd ərazilərində inkişaf etdirilməsinin vacibliyini ifadə edən turizm müəssisələrinin əldə etdiyi gəlirlə turistlərin sayı arasındakı əlaqənin statistik asılılığının reqressiya modeli $a_0$ və $a_1$ əmsallarının hesablanmış qiyməti nəzərə alınmaqla müəllif tərəfindən (1) formulası şəklində verilmişdir:

$$y_{xi} = 16{,}926 + 2{,}4934x_i, i = 1, \dots, 12. \quad (1)$$

Tapılmış sərbəst hədd ($a_0$), reqressiya əmsalı ($a_1$) və korrelyasiya əmsalı ($r_{xy}$) statistik əhəmiyyət baxımından qiymətləndirilərkən Styudentin t–kriteriyası (t–test) hesablanmış, bütün parametrlərin (bizim məsələdə $a_0$ və $a_1$) inamlı intervalı tapılmışdır. Determinasiya əmsalının qiymətinin $R^2$=0,04–ə bərabər olması ölkəmizdə 2009–2020–ci illər arasında turizm müəssisələrinin gəlirinin dəyişməsinin nəticəsi həmin illərdə 4% turist axınının artması ilə, qalan 96%–i reqressiya tənliyində nəzərə alınmayan faktlara görə izahlandırıla bilər.

Əgər $t_{fakt}>t_{kr}$ olarsa, onda $H_0$ hipotezi qəbul olunmur, yəni $a_0$ ,$a_1$ və $r_{xy}$ təsadüfən sıfırdan fərqli deyil və *x*-in qiyməti sərbəst amilin təsiri altında formalaşır. Tədqiqat işində $t_{fakt}<t_{kr}$ şərti ödənildiyi üçün $H_0$ hipotezi qəbul olunur.

*y* və *x* kimi dəyişənlər arasında turizm müəssisələrinin gəlir həcminin dəyişməsi ilə həmin illərdə turizm müəssisələrinin sayı arasında əlaqələrin sıxlığını bildirən korrelyasiya əmsalının $r_{xy}$=0,2–yə bərabər olması reqressiya tənliyində keyfiyyətin qiymətləndirilməsi F–test vasitəsilə reallaşır. Yəni, əlaqədə sıxlıq göstəricisi və reqressiyaya aid tənliyin statistik əhəmiyyətli olmaması haqqında olan $H_0$ hipotezini yoxlamaq lazım gəlir. Bunun üçün F–Fişer kriteriyasının faktiki qiyməti $F_{fakt}$ və cədvəldə olan $F_{kr}$ kritik qiymətinin müqayisəsi aparılır. Burada $F_{fakt}<F_{kr}$ olduğu halda reqressiya tənliyi etibarlı hesab edilir.Tədqiqat işində baxılan hal üçün reqressiya tənliyi 5% əhəmiyyətlilik səviyyəsində:

$F_{kr}=F_{\alpha;k_1;k_2}=F_{0,05;1;12}=4,75$, $F_{fakt}=1,04<F_{kr}=4,75$ olduğunu nəzərə alsaq, onda reqressiya tənliyi etibarlıdır.

Turizm sferası üzrə müəssisələrin gəlirinin turistlərin sayından asılılığının reqressiv təhlili göstərir ki, həqiqətən ekoloji cəhətdən təmiz iqlimin təmin edilməsi ölkəmizdə dayanıqlı inkişafın strateji vahidlərindən biri olan kəndin sosial infrastrukturunun inkişaf etdirilməsinə əlverişli şərait yaratmış olur. Kənd ərazilərinin sosial infrastrukturunun inkişaf etdirilməsi təkcə kənd yerlərinə turistlərin cəlb edilməsini deyil, həm də yeni iş yerlərinin yaradılmasını, əhalinin məşğulluğunun təmin edilməsini və sakinlərin stabil gəlir əldə etməsini, o cümlədən əhalinin yaşayış səviyyəsinin yüksəldilməsini təmin etmiş olur. Yuxarıda qeyd edilənlərə əsalanaraq müəllif belə bir nəticəyə gəlmişdir ki, ölkənin dayanıqlı inkişaf xəttinə yönəldilməsi iqtisadi proseslərin ətraf mühitə uyğunluğunu, eyni zamanda əhalinin həyat tərzi və keyfiyyətinin yüksəldilməsi ilə yanaşı rayonların ekoloji təhlükəsizliyinin qorunması və saxlanmasını təmin etməlidir. Beləliklə, ölkənin regionlarında kənd turizminin inkişafının qiymətləndirilməsi üzrə daha ətraflı tədqiqatın aparılması onun metodikasının işlənilməsini şərtləndirir.

Dissertasiya işində kənd ərazilərinin dayanıqlı inkişafının müəyyən edilməsi çərçivəsində qiymətləndirilmənin aparılması və kənd

ərazilərinin bu növ turizmin inkişafı üçün cəlbedici olduğunun aşkarlanmasının vacibliyi vurğulanır. Kənd ərazilərinin turizm potensialı səviyyəsinin müəyyənləşdirilməsi üçün onun inkişaf potensialını xarakterizə edən əsas göstəricilərin müəyyən edilməsi və qiymətləndirilməsi mərhələləri mütləq formalaşdırılmalıdır. Bu məqsədlə iqtisadi rayonlarda (İR) kənd turizmi potensialının qiymətləndirilməsi üçün müəllif tərəfindən altı mərhələdən ibarət blok-sxem verilmişdir. Blok-sxemə əsasən birinci mərhələdə İR-in cografi xarakteristikası, o cümlədən Qusar rayonunun Şahdağ ərazisində MDB məkanında analoqu olmayan müasir tipli qış-yay turizm kompleksinin tikilərək istifadəyə verilməsi, eyni zamanda burada turizmin ekoloji, tarixi, dini, işgüzar, idman, çimərlik, çay və digər növlərinin inkişaf etdirilməsi istiqamətində işlərin görülməsi və s. dövlət dəstəyi ilə həyata keçirilməsi vurğulanaraq qeyd edilmişdir ki, bütün bunlar həmin zonada kənd turizminin inkişaf etdirilməsi imkanlarının müəyyənləşdirilməsinə şərait yaradır. İkinci mərhələdə turizmin infrastrukturunun təhlili aparılaraq göstərilir ki, Quba-Xaçmaz İR-da vacibliyinə görə mehmanxana və mehmanxana tipli müəssisələrdə turistlərin yerləşdirilməsi 2014-cü ilə nisbətə 2019-cu ildə 2,85 dəfə və ya 1247,42 min nəfər artmışdır. Müqayisə edilən illərdə bu tip müəssisələrdə birdəfəlik tutum 1,4 dəfə və ya 14328 nəfər artmışdır. Müsbət artım dinamikası həmin İR-da turizmin inkişaf etdiyini göstərir, artım isə yerləşdirmə vasitələrinin nömrə fondlarının (yaşayış otaqlarının) sayının artması ilə əlaqəlidir. Etnik, kənd və turizm elementləri nəzərə alınmaqla Azərbaycanın İR-nın kənd turizmi potensialının qiymətləndirilməsi üçün yerləşdirmə vasitələrinin xarakteristikasını müəllif tədqiqat işində əlavələrdə vermişdir. Üçüncü mərhələ ekoloji amilləri nəzərə almaqla iqtisadi rayonun turizm infrastrukturu qiymətləndirildikdə aşağıdakı göstəricilərə əsasən təhlilin aparılmasının məqsədəuyğunluğu qeyd edilir: qonaq evlərinin və turistlərin yerləşdirilməsində evlərini istifadəyə verən sahibkarların sayı; rayondakı yolların keyfiyyəti və uzunluğu; rayonda ənənəvi sənətkarlığın mövcudluğu; əhalinin rifahı; əhalinin beynəlxalq dil bilmə səviyyəsi; rayonda cinayətlərin səviyyəsi və s. Dördüncü mərhələdə rayonun kənd turizminə cəlbediciliyinin qiymətləndirilməsi məqsədi ilə kənd ərazilərinin turistləri qəbul etməyə hazırlıq səviyyəsinin qiymətləndirilməsi aparılır.

Beşinci mərhələdə müvafiq kənd ərazisinə məxsus olan unikal (müstəsna) kənd turizmi resurslarının seçilməsi aparılır. Altıncı mərhələdə əsas məsələ iqtisadi rayonda kənd turizminin inkişafı və ona dəstək üzrə proqramların işlənilməsi, brendin yaradılması və kənd turizminin imicinin formalaşdırılmasının sona yetirilməsi nəzərdə tutulur.

Tədqiqat çərçivəsində ərazinin turizm cəlbediciliyinin qiymətləndirilməsində taksonometrik metod tətbiq edilmişdir. Bu metod qarşılıqlı əvəzedilən amillər çoxluğunun nəzərə alınmasına və hesabat nəticələrinə əsasən seçim sıralanmasına imkan verir:

$$X=\begin{pmatrix} x_{11} \cdots & x_{1j} \cdots & x_{1n} \\ \cdots \cdots & \cdots \cdots & \cdots \\ x_{i1} \cdots & x_{ij} \cdots & x_{in} \\ & \cdots \cdots \cdots \cdots \cdots & \\ x_{m1} \cdots & x_{mj} \cdots & x_{mn} \end{pmatrix}, (2)$$

burada: i=1,...,m-göstəricinin nömrəsi; j=1,...,n-iqtisadi rayonun nörəsidir.

Bu zaman iqtisadi rayonun göstəricilərə görə əhəmiyyətinin məcmusu matris şəklində verilir, sonra göstəricilərin normalaşdırılması aparılır və bu məqsədlə X matrisini Z matrisi ilə əvəz edilərək iqtisadi rayonların $Z_{ij}$ göstəricisi $X_{io}$ göstəricisinin orta qiyməti və dispersiyasına ( $\sigma_{io}^2$) görə hesablanır.

Normalaşdırılma prosedurunun aparılması mütləq qiymətlərin və göstəricilərin variasiyasının təsirini azaldır.

Sonra "etalon iqtisadi rayon"-nun ($Z_{ei}$) formalaşması yerinə yetirilir. Bunun üçün istənilən sətirdə müvafiq göstəricinin ən yüksək (ən aşağı) dəyəri seçilir və xarakteristikası matris-sütun şəklində verilir:

$$\begin{pmatrix} Z_{ei} \\ - \\ Z_{em} \end{pmatrix}.$$

İqtisadi rayondan "etalon rayon"a qədər olan kvaziməsafə $R_{ij}$ bütün iqtisadi royonlar üzrə (3) formulasına əsasən hesablanır:

$$R_{ij}= \sum_{j=1}^{n}(Z_{ij} - Z_{ei})^2. (3)$$

Hesabat nəticəsində $R_{ij}$-nin qiyməti minimum olan iqtisadi rayon ən yaxşı hesab edilir. Dissertasiyada kənd turizminə cəlbediciliyin qiymətləndirilməsi üzrə metodikanın tətbiqi 10 İR-a görə aparılmışdır. Hesablama zamanı biz statistik məlumatlardan istifadə etmişik. Ərazilərin kənd turizmi potensialına təsir göstərən amillərin qiymətləndirilməsi əsasında aparılmış hesablamalar işdə əlavələrdə öz əksini tapmışdır ki, bu göstərici də Azərbaycanın İR-da kənd turizminin inkişaf prioriteti üzrə reytinqinin tərtib edilməsinə imkan verir.

Aparılmış hesablamalar nəticəsində müəllif belə bir qənaətə gəlmişdir ki, ən yaxşı potensial göstəriciyə Dağlıq Şirvan, Naxçıvan MR, Quba-Xaçmaz İR-ları malikdir və işdə İR-ları kənd turizminə cəlbediciliyə görə yüksək, orta və aşağı səviyyəli kimi təsnif edərək sistemləşdirmişdir (cədvəl 1).

**Cədvəl 1. Azərbaycanın İR-nın kriteriyalar üzrə kənd turizminə cəlbedicilik səviyyəsi**

| S/N | Kənd turizminə cəlbedicilik səviyyəsi | Kriteriyalar | Azərbaycanın iqtisadi rayonları |
|---|---|---|---|
| 1 | Yüksək | $R_i \leq 0{,}024$ | Dağlıq Şirvan, Naxçıvan MR, Quba-Xaçmaz |
| 2 | Orta | $0{,}024 \leq R_i \leq 0{,}044$ | Bakı, Lənkəran-Astara, Yuxarı Qarabağ |
| 3 | Aşağı | $0{,}044 \leq R_i$ | Gəncə-Qazax, Şəki-Zaqatala, Aran, Abşeron |

Qeyd: iqtisadi rayonların yeni bölgüsü üzrə məlumatlar olmadığından köhnə bölgü üzrə İR-lar verilmişdir

Beləliklə, aparılmış sistemləşdirməyə əsasən müəllif qeyd edir ki, ölkənin İR-nın çoxu kənd turizmi potensialına malikdir, onun həyata keçirilməsi yalnız bu sahə ilə maraqlanan turistlərin cəlbedilməsini deyil, eyni zamanda həmin ərazilərdə gələcəkdə böyük turizm komplekslərinin yaradılmasını şərtləndirir. Azərbaycanda kənd turizminin inkişafı çərçivəsində tədqiqatçı ölkənin İR-nın kənd turizmi potensialının layihələndirilməsini təklif edir. Bu məqsədlə 7 günlük kənd turizmini formalaşdırmaq məqsədi ilə xərclərin təxmini smetası hesablanaraq 185-305 manat hüdudunda müəyyən edilmişdir. Beləliklə, kənd turizmi məqsədi ilə gələn turistlərə minimum lazım gələn xidmətlər yığımına əsasən gündəlik xərclərin orta qiyməti təxminən 35 manat təşkil edir ki, bu da fikrimizcə turistlərin cəlb edilməsi üçün kifayətdir və rəqabət qabiliyyətli turizm məhsulunun formalaşmasına imkan verir. Azərbaycanda turizm bazarının inkişafına maneçilik

göstərən əsas səbəblərdən biri, tədqiqat işində qeyd edildiyi kimi, hava və dəmir yolu nəqliyyatı qiymətinin yüksək olması ilə əlaqəlidir ki, bu da rayonların nəqliyyat imkanlarını azaldır. Kənd ərazilərinə gəlmiş turistlərin kənd turizmini daha hərtərəfli öyrənməsi üçün, bizim tərəfimizdən kənd turizminin yerinə yetirilməsi imkanlarına baxılmış və onun təşkili prosedurlarının ardıcıllığı verilmişdir. Kənd turizmində təkməqsədli kənd turları tərtib edildikdə onların spesifikliyinə xüsusi diqqət verilməlidir, çünki burada turun davam etmə müddəti məqsədlərdən asılı olaraq kifayət qədər üzun müddətli ola bilər. Əsasən təkməqsədli turlara maraq dini təcrübələrin toplanması və xalqların adət-ənənələrini dərindən öyrənmək istəyən şəxslərdə olur, çünki bu tip turistlər məqsədlərinin daha da dərindən idrakına və anlanılmasına xüsusi fikir verirlər. Azərbaycanın iqtisadi rayonlarında kənd turizminin inkişafının koordinasiyası məqsədi ilə müəllif tədqiqat işində yeni model təklif edir ki, burada da kənd turizminin əsas elementlərinin məcmusu əks etdirilir.

Quba-Xaçmaz iqtisadi rayonunun sosial, ekoloji və iqtisadi həyatındakı dəyişikliklərin hərtərəfli öyrənilməsi məqsədi ilə tədqiqatçı tərəfindən kompleks göstəricilər təklif edilir. Qeyd edilən kompleks göstəricilərin monitorinqi iqtisadi rayonun yalnız sosial-iqtisadi fəaliyyətinin səmərəliliyini deyil, eyni zamanda əhali üçün ekoloji komfortluğun səviyyəsini və bütünlükdə kənd turizmi fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsini izləməyə imkan verir. Əlverişli ekoloji şəraitdə turistləri qəbul etməyə qadir, inkişaf etmiş kənd ərazilərinə malik olan rəqabətqabiliyyətli kənd turizmi rayonunun yaradılması ilə yanaşı bu fəaliyyət sahəsinin sosial-ekoloji-iqtisadi resursları və nəticələri nəzərə alınmalıdır. Bu çərçivədə Quba-Xaçmaz iqtisadi rayonunun sosial, ekoloji və iqtisadi sferalarının monitorinqi modeli təklif edilmişdir (şəkil 3).

Modeldən göründüyü kimi, kənd turizm rayonları əvvəlcədən kənd turizmi səyahətçilərinin turməhsullar üzrə tələblərini Azərbaycan Dövlət Turizm Agentliyi vasitəsi ilə öyrənə bilər. Azərbaycan Dövlət Turizm Agentliyi turizm sferasında xidmət göstərən müəssisələrin işinə təsir edən Nazirliklər, Agentlik və Mərkəzlər vasitəsi ilə bu sahənin əsas məqsələrini, icra mexanizmlərini düzgün müəyyənləşdirməklə iqtisadi rayonların turizm potensiallarına müvafiq olaraq

turların düzgün təşkil edilməsini həyata keçirə bilər. Bu zaman əsas məqsəd iqtisadi rayonun sosial-ekoloji-iqtisadi inkişafının qiymətləndirilməsinin göstəricilər sistemi vasitəsilə kənd ərazilərində turizm xidməti tələbediciləri üçün çoxməqsədli və təkməqsədli turların düzgün təşkilini formalaşdırmaqdan ibarət olmalıdır.




**Şəkil 3. Quba-Xaçmaz iqtisadi rayonunda kənd turizminin inkişaf modeli**

Quba-Xaçmaz iqtisadi rayonunda kənd turizminin inkişafının təklif edilən modelinin praktiki tətbiqi burada kənd turizminin real

sektorunun yaradılmasına imkan verəcəkdir ki, bu da həm dayanıqlı inkişaf şəraitində turizm regionunun inkişafını, həm də onun imicinin təşviqini və formalaşmasını təmin edəcəkdir.

Beləliklə, bu modelin effektivliyi kənd turizminin ninkişafı əsasında regionun kənd ərazilərinin dayanıqlı inkişafı şəraitinin əldə olunması ehtimalını artırır, bu da öz növbəsində iqtisadi rayonun dayanıqlı inkişaf xəttinə girişinin təmin edilməsinə imkan yaradır.

Dissertasiyanın "**Nəticə**" hissəsində əhalinin həyat səviyyəsinin kənd turizminin səmərəli təşkili əsasında yüksəldilməsi istiqamətləri ilə bağlı nəticəyə gəlinmiş və elmi cəhətdən əsaslandırılmış təkliflər verilmişdir.

**Dissertasiya işinin əsas müddəaları, əldə ediliş nəticə və təkliflər dərc olunmuş aşağıdakı əsərlərdə öz əksini tapmışdır:**

1. Səmədova A.Q. Rəqabətqabiliyyətlilik və onun əhalinin həyat səviyyəsinin yüksəldilməsinin təmin edilməsində rolu. Əmək və Sosial problemlər elmi əsərlər toplusu jurnalı. Bakı, -2018, -№ 2 (22), - s. 88-93

2. Səmədova A.Q. Turizm potensialının qiymətləndirilməsinin metodiki əsasları. Kooperasiya Elmi Praktik jurnalı. Bakı, -2019, -№ 2 (53), - s. 212-218

3. Səmədova A.Q. Azərbaycanda Kənd Turizminin vəziyyəti və inkişafının Qiymətləndirilməsi. Azərbaycan İnşaat Mühəndisləri Universiteti. Beynəlxalq Elmi Konfrans. Bakı, -23-24 may 2019, -582-584

4. Səmədova A.Q. Əhalinin həyat səviyyəsinin yüksəldilməsində Sosial Xidmət Institutlarının rolu. AR ƏƏSMN-nin 100 illiyinə həsr olunmuş Beynəlxalq Elmi-Praktiki Konfrans. –Bakı, -17 noyabr 2020, -359-362

5. Səmədova A.Q. Turizm müəssisələrində gəlirin proqnozlaşdırılması. Əmək və Sosial Münasibətlər Elmi Praktik jurnalı. Bakı, -2020, -№ 1 (13), - s. 97-106

6. Səmədova A.Q. Turizm sferası müəssisələrinin iqtisadi inkişafının proqnozlaşdırılması. Əmək və Sosial Münasibətlər Elmi Praktik jurnalı. Bakı, -2020, -№ 2 (14), - s. 88-96

7. Samadova A.Q. İmpact of tourism development in Azerbaijan on the country's economy. American İnternational Journal of Business Managment (AİJBM). -2020, -Vol 3, -İssue 10, p.1-10

8. Samadova A.Q. The role of rural tourism in the development of the rural economy. The journal of economicsciences: theory and practice. -2020, -№1, -p.51-64

9. Самедова А.К. Влияние индустрии туризма на экономику Азербайджана. Сборник Журнала ЧУДО НИОЦ (РИНЦ). Чистополь, - 2020, -с.176-186

10. Самедова А.К. Оценка привлекательности Азербайджана в сфере туризма. Журнал Евразийского Научного Объединения (РИНЦ). Москва, - 2020, -с.285-293

11. Səmədova A.Q. Turizm potensialınıən qiymətləndirilməsində kənd ərazisinin sosial-iqtisadi vəziyyətinin rolu. Azərbaycan Əmək Sosial Münasibətlər Akademiyası "Milli təhlükəsizliyin iqtisadi və sosial-mədəni aspektləri" mövzusunda Beynəlxalq elmi-praktik konfransı. -2020. -s 73-76

12. Səmədova A.Q. Əhatə matrisi göstəriciləri əsasında Azərbaycanda Beynəlxalq turizm sənayesinin yüksəldilməsi. Əmək və Sosial Münasibətlər Elmi Praktik jurnalı. Bakı, -2021, -№ 1(15), - s. 93-106

13. Səmədova A.Q. Azərbaycanda kənd turizminin inkişaf modeli. Kooperasiya Elmi Praktik jurnalı. Bakı, -2021, -№ 1 (60), - s. 106-112

14. Səmədova A.Q. Kənd ərazilərində kənd turizmi potensialının qiymətləndirilməsi. Azərbaycan Əmək Sosial Münasibətlər Akademiyası "Pandemiyanın dünya ölkələrinin sosial-iqtisadi inkişafına təsiri problemləri" mövzusunda Beynəlxalq elmi-praktik konfransı. -2021. -s 113-118

15. Samadova A.Q. Main indicators of productivity and profitability of working personnel. Conference materials. - Rostov-on-Don, - 23 june's 2021, -pp.353-361

16. Samadova A.Q. Model of the İnfluence of İnternal Production Conditions on the Efficiency of Enterprises. Studies of Applied Economics.- July 2021, - Vol.39-6, - pp.1-15

Dissertasiyanın müdafiəsi "30" mart 2022-ci il saat 16:00-da Azərbaycan Dövlət Aqrar Universiteti nəzdində fəaliyyət göstərən Azərbaycan Dövlət Aqrar Universiteti və Azərbaycan Kooperasiya Universitetinin ED 2.42 Birgə Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Az 2000, Azərbaycan Respublikası, Gəncə şəhəri, Atatürk prospekti, 450.

Dissertasiya və avtoreferat elektron versiyaları ilə Azərbaycan Dövlət Aqrar Universitetinin rəsmi internet saytında (www.adau.edu.az) yerləşdirilmişdir.

Dissertasiya işi ilə Azərbaycan Dövlət Aqrar Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "28" fevral 2022-ci ildə göndərilmişdir.

Çapa imzalanıb: 23.02.2022
Kağızın formatı: (210x297) 1⁄4
Həcm: 46730 işarə
Tiraj: 100